# Azərbaycanın sosial sahədəki təcrübəsini digər ölkələr də tətbiq edəcək

***Birləşmiş Millətlər Təşkilatı (BMT), Ümumdünya Səhiyyə Təşkilatı (ÜST), UNİCEF, Avropa Əlillər Forumu, Beynəlxalq Əlillər Alyansı və digər beynəlxalq təşkilatların dəstəyi ilə onlayn formatda "Avropa Regional Əlillik" sammiti keçirilib. Azərbaycanda son illər əlillik və reabilitasiya sahəsində mühüm islahatlar aparıldığı nəzərə alınaraq, ölkəmizin bu sahədə uğurlu təcrübəsini bölüşməsi də sammitin gündəliyinə salınıb. Sammitdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) tabeliyində Dövlət Tibbi – Sosial Ekspertiza və Reabilitasiya Agentliyi tərəfindən ölkədə əlillik və reabilitasiya sahəsində aparılan islahatlar diqqətə çatdırılıb.***

Əlilliyi olan insanların sosial müdafiəsinin gücləndirilməsinin, onların reabilitasiyasının Prezident İlham Əliyevin uğurlu sosial siyasətinin prioritetlərindən olduğu vurğulanıb. Əlilliyi olan şəxslərin sosial ödənişlərinin artırılması sahəsində ardıcıl olaraq atılan mühüm addımlar qeyd edilib. Agentliyin reabilitasiya mərkəzlərinin dövlət tərəfindən maliyyələşdirilən proqramlar əsasında xidmətlər göstərdiyi deyilib. Bildirilib ki, Fərdi Reabilitasiya Proqramı üzrə göstərilən bu xidmətlər biopsixososial yanaşmaya əsaslanır. Son 3 ildə 12 reabilitasiya və sosial xidmət müəssisəsi əsaslı təmir və yenidənqurmadan sonra müasir avadanlıqlarla təchiz olunmuş şəkildə istifadəyə verilib, yeni mərkəzlər açılıb və ölkədə reabilitasiya mərkəzləri şəbəkəsinin genişləndirilməsi işləri davam edir.

Qeyd edilib ki, dövlət büdcəsi hesabına verilən reabilitasiya vasitələrinin növlərinin siyahısına ötən il 23 yeni növ də daxil edilib və onların ümumi sayı artıq 57-yə çatıb. Ölkəmizdə əlilliyin qiymətləndirilməsinin rəqəmsal infrastrukturu, əlilliyin müəyyən olunması ilə bağlı bu il qüvvəyə minəcək yeni meyarlar diqqətə çatdırılıb. Əlillik və reabilitasiya sahələrində islahatlarda qabaqcıl beynəlxalq təcrübəyə istinad edildiyi, bu sahədə ÜST ilə fəal əməkdaşlıq həyata keçirildiyi vurğulanıb. Həmçinin 2020-ci ildə tarixi zəfərimizlə başa çatan Vətən müharibəsində 200-ə yaxın hərbçinin aşağı və yuxarı ətraflarını itirdiyi bildirilib, onların yüksək texnologiyalı protezlərlə təminatı işlərindən bəhs olunub.

Həmin müharibə və Ermənistanın əvvəllər işğalda saxladığı ərazilərin mina xəritələrini tam və vaxtında açıqlamaqdan qəti şəkildə imtina etməsinin həm mülki şəxslər, həm də hərbi qulluqçular arasında əlilliyi olanların sayının artmasına səbəb olduğu qeyd edilib. Bunun da, öz növbəsində, yüksək texnologiyalı protezlərə və digər reabilitasiya vasitələrinə ehtiyacı əhəmiyyətli dərəcədə artırdığı bildirilib.

Sammitdə ÜST, Beynəlxalq Əlillər Alyansı, Beynəlxalq Əmək Təşkilatı, Norveç Əlillər Təşkilatları Federasiyası, BMT-nin Avropa üzrə İnsan Hüquqları Regional ofisinin təmsilçilərinin və digər nümayəndələrin məruzələri dinlənilib. Məmnunluq doğuran haldır ki, son illər ölkəmizdə əlillik və reabilitasiya sahəsində aparılan islahatlar, ümumən əhaliyə elektron əsaslı proaktiv xidmətlərin formalaşdırılması sahəsində əldə olunan nailiyyətlər yüksək qiymətləndirilib. Həmçinin əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində Azərbaycanda reallaşdırılan islahatlar maraqla qarşılanıb. Çıxış edənlər Azərbaycanın bu sahədə uğurlu təcrübəsinin öz ölkələrində tətbiqi perspektivlərindən bəhs ediblər.

Onu da qeyd edək ki, ƏƏSMN-nin tabeliyində Sosial Xidmətlər Agentliyi bu il xüsusi qayğıya ehtiyac duyan şəxslərin reabilitasiya yönümlü sosial xidmətlərlə təminatı üzrə 150-dən çox layihə həyata keçirməyi planlaşdırır. Bu layihələr qurumun fəaliyyət istiqamətlərinə uyğun olmaqla, çətin həyat şəraitində olan, habelə sağlamlıq imkanları məhdud uşaqların və ailələrinin, ümumən xüsusi qayğıya ehtiyac duyan şəxslərin zəruri sosial dəstək, sosial reabilitasiya yönümlü sosial xidmətlərlə əhatə olunmasını nəzərdə tutur.

Layihələr üzrə günərzi qayğı və icma əsaslı reabilitasiya mərkəzlərinin də yaradılması, müvafiq kateqoriyalardan olan şəxslərə sosial-psixoloji, nevroloji, pedaqoji və s. xidmətlər, habelə ailələrinə hüquqi məsləhət xidmətləri göstərilməsi nəzərdə tutulub. Eləcə də sağlamlıq imkanları məhdud uşaqlar və əlilliyi olan şəxslər arasında idman tədbirlərinin keçirilməsi, onların beynəlxalq yarışlarda iştirakına şərait yaradılması, autizm eşitmə və nitq qabiliyyəti olmayan uşaqlara reabilitasiya xidmətlərinin göstərilməsi, övladlığagötürmə, insan alverinə qarşı mübarizə və s. ilə bağlı təbliğat məqsədli layihələr icra olunacaq.

Sosial sahədə aparılan uğurlu islahatlardan biri də, işsizliyin aradan qaldırılmasıdır. ƏƏSMN tərəfindən ötən ilin iyun ayında başladılan "Məşğulluq marafonu"na bu günədək 612 işəgötürən qoşularaq 4126 vakansiya təqdim edib. Marafon Vətən müharibəsi şəhidlərinin ailə üzvlərinin və müharibədə yaralanmış hərbi qulluqçuların məşğulluğuna dəstək məqsədi daşıyır. "Məşğulluq marafonu"na təqdim edilmiş vakansiyalar üzrə qeyd edilən kateqoriyalara aid 1656 şəxs işlə təmin olunub. Hazırda da vakansiyalar üzrə




göndərişlərin verilməsi davam edir.

Ötən ilin sonunda Prezident İlham Əliyevin imzaladığı yeni fərman və sərəncamlar dövlət başçısının sosial sahəyə xüsusi qayğısını təzahür etdirməklə ölkəmizdə vətəndaş rifahının təminatı məqsədilə ardıcıl olaraq reallaşan sosial islahatlar proqramının yeni istiqamətlər üzrə daha da genişlənməsinə imkan verib. Belə ki, dövlət başçısının təsdiq etdiyi yeni qanunla minimum aylıq əmək pensiyasının 20 faiz artımla 200 manatdan 240 manata çatdırılması 65 min pensiyaçını əhatə edir. Pensiya islahatlarının mühüm uğurlarından biri kimi, son 3 ildə minimum pensiyada 2,2 dəfə artım baş verməklə, 110 manatdan 240 manata çatdırılıb. Orta aylıq pensiya son üç ildə 60 faiz artaraq 331 manat, yaşa görə pensiya 358 manat təşkil edib.

Bu il minimum pensiyanın pensiyaçılar üçün yaşayış minimumu (176 manat) 36,4 faiz üstələyəcəyi gözlənilirdi ki, bunun üçün də illik 13,2 milyon manat əlavə vəsait ayrılması nəzərdə tutulmuşdu. Prezidentin sərəncamı ilə Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə 2021-ci il 30 dekabr tarixinə ünvanlı dövlət sosial yardımı alan ailələrin hər birinə 100 manat məbləğində birdəfəlik yardım ödənilməsi aztəminatı ailələrə sosial dəstək istiqamətində növbəti addım oldu. Sərəncam 200 mindən çox ailə üzvü olan 47 min ailəni əhatə etdi. Qeyd edək ki, həmin birdəfəlik yardım üçün 4,8 milyon manat ayrılmışdı. Ünvanlı sosial yardımın hər ailəyə düşən orta aylıq məbləği son 4 ildə 88 faiz artıb və hazırda 280 manatdan çoxdur.

Əhalinin aztəminatlı zümrəsinə və ümumiyyətlə, pensiyaçılara dövlət tərəfindən göstərilən qayğı davam edir. Prezident İlham Əliyevin "Əmək pensiyaçılarının sosial müdafiəsi sahəsində əlavə tədbirlər haqqında" 8 fevral 2022-ci il tarixli sərəncamı dövlət başçısının pensiyaçılara növbəti qayğısı olmaqla, COVID-19 pandemiyasının, habelə beynəlxalq bazardakı qiymət artımlarının ölkədaxili inflyasiyaya və əmək pensiyaçılarının sosial rifahına mənfi təsirlərinin yumşaldılması məqsədinə xidmət edir. Xüsusilə, qeyd etməliyik ki, bu sərəncam Prezident İlham Əliyevin pensiyaçılara yeni sosial dəstəyi deməkdir.

Bildirək ki, sərəncama uyğun olaraq, əmək müqaviləsi ilə işləyənlərin pensiyalarının artırılması da diqqətdən kənarda qalmayacaq. Sənədə əsasən, istehlak qiymətləri indeksinin illik səviyyəsinə uyğun olaraq sığortaolunanların fərdi hesablarının sığorta hissəsindəki pensiya kapitalları da 6,7 faiz indeksləşdirilməklə artırılır. Bu da əmək müqaviləsi əsasında işləyən şəxslərin fərdi hesablarındakı pensiya kapitalının təkcə hər ay onların əməkhaqlarından sosial sığorta ayırmaları ilə deyil, həmçinin hər ilin əvvəlində dövlət tərəfindən indeksləşdirilərək artırıldığını da göstərir.

Artıq Dövlət Sosial Müdafiə Fondu fevral ayı üzrə pensiyaların ödənişinə başlayıb. Fevralın 10-da Bakı və Sumqayıt şəhərləri, Abşeron rayonu üzrə pensiyaların ödənişi həyata keçirilib. 2022-ci ilin 1 yanvar tarixindən etibarən tətbiq olunan pensiya artımının yanvar ayı üçün olan artımı da fevral ayının pensiyası ilə birgə ödənilib. Bundan başqa, 2022-ci il üzrə pensiyaçılara verilməsi nəzərdə tutulan 200 manat maddi yardımın rüblər üzrə bərabər bölünərək onlara verilməsi nəzərdə tutulub. Həmin maddi yardımın birinci rübə düşən ilk hissəsi (50 manat) də fevral ayının pensiyasına əlavə olunaraq verilib. Güzəştli şərtlərlə pensiya təyin edilmiş şəxslərin və ölkəmizin digər bölgələrində yaşayan şəxslərin pensiyaları da bu ay müvafiq qrafik üzrə ödəniləcək. Qeyd edək ki, bu artım və yardım yalnız əmək pensiyaçılarına aiddir. Amma yeni sərəncam, qulluq stajına görə əlavələrlə pensiya təyin edilmiş şəxsləri də əhatə edir. Dövlət başçısı tərəfindən Nazirlər Kabinetinə bu kateqoriyadan olan pensiyaçıların pensiyalarının indeksləşdirilməklə artırılması, habelə 2022-ci il üzrə maddi dəstəyin göstərilməsinə dair təkliflərini 1 ay müddətində təqdim edilməsi tapşırılıb.

Digər sosial ödənişlər kimi, ünvanlı dövlət sosial yardımlarının məbləğində də artım tempi davam edir. 2022-ci ilin yanvar ayında bir ailəyə ödənilən ünvanlı dövlət sosial yardımının orta aylıq məbləği ötən ilin müvafiq dövrünə nisbətən 17 faiz artaraq 282 manata çatıb. Ünvanlı dövlət sosial yardımının təyin edilməsi üçün ehtiyac meyarının həddi yeni qanunla 17,6 faiz və ya 30 manat artırılaraq 2022-ci il üçün 200 manat məbləğində müəyyən edilib. Bu da cari ildə ünvanlı dövlət sosial yardımının məbləğində də növbəti artıma imkan verəcək.

***Zərifə BƏŞİRQIZI,***
***"Xalq qəzeti"***